# AZƏRBAYCAN MİLLİ KİTABXANASINDA OXUCULARA XİDMƏT İŞİNİN AVTOMATLAŞDIRILMASININ MÜASİR VƏZİYYƏTİ

**MİKAYILOVA S.**
***BDU, Kitabxanaşünaslıq kafedrasının magistrantı***

*Məqalədə Milli Kitabxanada oxuculara xidmət işinin avtomatlaşdırılmasının hazırda hansı vəziyyətdə olduğundan bəhs olunur. Həmçinin oxuculara xidmət işində hansı yeniliklərin tətbiq olunması da araşdırılır.*

***Açar sözlər:*** *Milli Kitabxana, oxuculara xidmət, avtomatlaşdırma, onlayn xidmət*

Müasir kitabxanalar hazırda dünya elmi-mədəni həyatında öz təsiri və rolu ilə seçilən, cəmiyyətin müxtəlif informasiyalara-biliklərə olan tələbatını ödəyən sosial institutlardır.

Kitabxana işi haqqında qanunda da deyildiyi kimi, kitabxanaların əsas vəzifəsi oxucuların mədəniyyət təsisatları və mədəniyyət sərvətlərindən istifadə etmək hüququnu, habelə məlumat əldə etmək azadlığını təmin etmək, onların kitabxana fondlarından tam istifadə etməsi üçün hər cür şərait yaratmaqdır [6].

Hazırda Azərbaycan kitabxanalarının informasiya cəmiyyətinə inteqrasiyası bilavasitə kitabxanaların avtomatlaşdırılması ilə reallaşdırılır. Kitabxanalarımız əvvəlki illərdə olduğu kimi, yalnız fondlarını ədəbiyyatla komplektləşdirməklə, ənənəvi xidmətlər göstərməklə kifayətlənmir və əsas üstünlüyü informasiya cəmiyyətinin tələblərinə uyğunlaşmağa və innovativ yenilikləri xidmət prosesinə tətbiq etməyə verirlər. Bu baxımdan avtomatlaşdırma ənənəvi kitabxanaların informasiya cəmiyyətinə transformasiya vasitəsi hesab oluna bilər.

Avtomatlaşdırma kitabxanalarda həyata keçirilən proseslərin informasiya-kommunikasiya texnologiyalarının köməyə ilə reallaşması, informasiya resurslarının toplanması, mühafizəsi və təbliğinin daha da optimallaşdırılması deməkdir. Hər bir kitabxananın avtomatlaşdırılması üçün müəyyənləşdirilmiş texniki təchizatın və proqram təminatının olması vacib şərtlərdən biridir.

Bu gün respublika kitabxanaları arasında Azərbaycan Milli Kitabxanasında həm kitabxana-informasiya fəaliyyətinin, həm oxuculara təqdim edilən informasiya xidmətlərinin müasir dövr üçün ən modern nümunəsini görə bilərik.

Milli Kitabxanada avtomatlaşdırılmış kitabxana-informasiya sistemi kimi VİRTUA-dan istifadə olunur. VTLS VİRTUA proqramı MARC 21 formatı ilə





işləyir. Kitabxana tərəfindən sistemin bütün modulları alınmışdır. Administrator yarımsisteminin köməkliyi ilə kitabxananın mütəxəssisləri avtomatlaşdırılmış idarəetmə sisteminin yeni və son versiyasının quraşdırma işlərini başa çatdırmışlar. VTLS VİRTUA proqramının "Language Editor" faylı Azərbaycan dilinə tərcümə edilmişdir.[1]

Azərbaycan Milli Kitabxanası respublikanın baş kitabxanası kimi avtomatlaşdırma sahəsində bir sıra nailiyyətlər əldə etmişdir. Belə ki, 2012-ci ildə oxuculara xidmətin keyfiyyətini artırmaq üçün oxuculara xidmət proseslərinin avtomatlaşdırılmasına başlanılmışdır. Bu məqsədlə Mədəniyyət və Turizm Nazirliyi ilə birgə layihə həyata keçirilməsi davam etdirilmiş və layihə üzrə kitabxanaya yeni avadanlıqlar gətirilmiş və quraşdırılaraq istifadəyə verilmişdir. Oxucuların qeydiyyatının avtomatlaşdırılması məqsədilə elektron kartların tətbiqinə başlanılmışdır. Bu sistemin qurulması nəticəsində qısa müddət ərzində oxucunun qeydiyyatı aparılaraq onun haqqında məlumatlar vahid elektron-məlumat bazasına daxil edilir, oxucuya elektron oxucu kartı verilir. Elektron kart alan oxucuların kitabxanaya gəlişini qeydə almaq üçün elektron oxucu kartı turniket qurğusuna yaxınlaşdırılarkən qapılar açılır və oxucu kitabxanaya daxil olur və onların gəlişi avtomatik qeydiyyata alınır.

Oxuculara kitab verilişinin təkmilləşdirilməsi məqsədilə kitabxananın fondlarında yeni kompüterlər və avadanlıqlar quraşdırılmış, kitab verilişi sisteminin daha da sürətlənməsi üçün lazımi proqramlarla təmin olunmuşdur. Binanın müxtəlif yerlərində informasiya monitorları quraşdırılmış və bu monitorlarda oxucunun kart vasitəsilə etdiyi sifariş barədə məlumatlar öz əksini tapır.

Kitabların sifarişi prosesi də avtomatlaşdırılmışdır və oxucu özünə lazım olan kitabları elektron kataloqda axtarış apararaq sifariş edir. Bu zaman sifariş dərhal kitab fondundakı printerdə çap olunaraq icra olunur.

Milli Kitabxanada aparılan avtomatlaşdırılma prosesində rus dilində olan sistemli kataloqların retrokonversiya edilməsi işini də xüsusi qeyd etmək lazımdır. Bu məqsədlə kartoçkaların skan edilməsi üçün xüsusi skaner alınmışdır. Hazırda retrokonversiya prosesi və skan olunmuş kartoçkaların elektron bazaya yerləşdirilməsi sürətlə davam etdirilir. Bu elektron kartoçkaların axtarışı və sifarişi üçün xüsusi TouchScreen monitor quraşdırılmışdır. Retrokonversiya biblioqrafik yazının, yəni kitabxana kataloqlarının fəaliyyətinin bir formadan digər formaya çevrilməsi deməkdir. Bu halda kataloq kartoçkalarında olan mətni məlumatlar dəyişilməz qalır və xüsusi qurğunun köməyi ilə skan olunaraq maşınla oxunan vəziyyətə gətirilir. Konversiya edilmiş kataloqların üstün cəhətləri ondan ibarətdir ki, kataloqda oxucu sərbəst axtarış apara bilir, ədəbiyyatı öz maraq dairəsinə görə seçir və bu sahədə yeni çap olunan ədəbiyyatla da tanış olmaq imkanı əldə edir. Bir

kompüter arxasında əyləşmiş oxucu onlarla kataloq yeşiklərini gözdən keçirə bilir ki, bu da vaxt itkisinin azalmasına gətirib çıxarır. Konversiya edilmiş sistemli kataloqlar oxuculara, istifadəçilərə eyni vaxtda eyni mövzu üzrə müxtəlif kompüterlərdə axtarış aparmaq imkanını yaradır [ 5, s.34].

Həmçinin Milli Kitabxana onlayn xidmət vasitəsilə oxuculara və kitabxana işçilərinə məsafədən xidmət də təklif edir. Belə ki, istənilən şəxs kitabxananın saytına daxil olaraq onlayn xidmət pəncərəsindən istədiyi xidmət növünü (virtual sifariş, metodik xidmət, biblioqrafik sorğu) seçməklə öz sorğusunu və ya sifarişini kitabxanaya göndərə bilər. Bu xidmət növlərinin yaradılması oxucu və kitabxanaçıların sorğularının daha dəqiq və operativ cavablandırılmasına səbəb olmuşdur.

Virtual sifariş xidmətini seçməklə oxucu özü haqqında bir sıra məlumatları, o cümlədən sifariş vermək istədiyi kitabın sərlövhəsini, müəllifini, nəşr ilini, kitabxananın elektron kataloqundan həmin kitabın düzülüş şifrəsini tapıb qeyd etməklə sifarişini kitabxanaya göndərə bilər. Sifarişlər kitabxanada tez müddətə cavablandırılır və oxucunun kitabı üç gün müddətində saxlanılır. Bu bölmədə həmçinin kitablarla yanaşı jurnal və qəzetlərin də sifarişini həyata keçirmək mümkündür. Sifarişlər bazar ertəsindən başqa hər gün saat 10:00-dan 18:00-dək qəbul olunur. Sifariş etmək istədiyiniz ədəbiyyatın şifrəsini kitabxananın elektron kataloquna daxil olmaqla əldə etmək mümkündür. Şifrəsi məlum olmayan ədəbiyyatı sifariş etmək istədikdə isə kitabın müəllifini və adını yazmaqla sifariş etmək olar. Elektron kataloqdan verilən sifarişlər dərhal icra olunur və oxucuya məlumat verilir. Şifrəsi məlum olmayan ədəbiyyat üzrə sorğular isə 1 saat ərzində cavablandırılır.


Kitab | Jurnal | Qəzet
Adınız və soyadınız:* Məmmədov Məmməd
Oxucu biletinin nömrəsi:* *********
E-mail:* 555@hotmail.com
Kitabxanaya gələcəyiniz vaxt:* 01.01.2016, Cümə, 13:40
Kitabın müəllifi:* Elçin
Kitabın sərlövhəsi:* Mahmud və Məryam
Nəşr ili:* 2003
Kitabın şifrəsi:* Ш6/E44
Qeyd: Əziz oxucu, Siz burada Qeyd olaraq öz istək və arzularınızı yazıb bizə göndərə bilərsiniz
GÖNDƏR





Virtual sifarişin xidmətlərindən istifadə edənlər 2012-ci ildə 1257 nəfər, 2013 -cü ildə 1304 nəfər, 2014 -cü ildə isə 1331 nəfər olmuşdur. [1]

Metodik xidmət bölməsi vasitəsilə kitabxana işçilərinə virtual metodik xidmət həyata keçirilir. Bu bölmədə kitabxana işinin müxtəlif sahələrinə dair sorğular operativ şəkildə cavablandırılır.


METODİKİ XİDMƏT
Bu bölmə virtual metodik xidmət edir. Siz bu bölməyə kitabxana işinə dair müxtəlif suallarınızı göndərə bilər, metodik tövsiyyələr ala bilərsiniz. Biz bu metodiki tövsiyyələrimizi göndərəcəyik.
Kitabxananın adı:*
Adınız və soyadınız:*
E-mail adresi:*
Sual
GÖNDƏR

Biblioqrafik sorğu bölməsində isə kitabxanada hər hansı bir kitabın olub olmamasını tez müddətdə öyrənmək mümkündür. Bu bölmə sizə məsafədən (virtual) biblioqrafik sorğu xidmətini təqdim edir. Bölməyə daxil olmaqla kitabxanaya gəlmədən, iş və ya yaşayış yerindən ayrılmadan İnternet vasitəsilə konkret nəşrin (kitab, jurnal, qəzet. not və s.) Milli Kitabxananın fondunda olub-olmaması haqqında məlumat əldə edə bilərsiniz. Hər oxucu 5 adda ədəbiyyata sorğu verə bilər və sorğular ən geci 1 saat ərzində cavablandırılır.

2016-cı ildən Milli Kitabxananın elektron kataloqunda axtarış aparan oxucu hazırlanmış xüsusi proqram vasitəsilə birbaşa həmin kitabı onlayn oxumaq imkanı əldə etmişdir. Burada Azərbaycan Respublikasının "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanuna əməl etmək məqsədilə kitablara Milli Kitabxananın holoqramı vurulmuş, kitabın surətinin çıxarılmasına, üzünün köçürülməsinə, elektron daşıyıcılara ötürülməsinə məhdudiyyətlər qoyulmuşdur. Demək olar ki, Milli kitabxananın fondunda olan əksər kitabların elektron versiyası buraya daxil edilmişdir. Əvvəllər Milli Kitabxananın elektron kitabxanasında Azərbaycan Respublikasının "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanununa əsasən yalnız kitabxananın lokal şəbəkəsində kitabların elektron versiyasından istifadə etmək olurdu. Bu gün isə artıq elektron kataloqda yaradılmış hər bir kitabın biblioqrafik məlumatlarının içərisinə yerləşdirilmiş müvafiq "online oxumaq üçün" bölməsi də mövcuddur.

Milli Kitabxanada oxuculara xidmət işində elektron dissertasiya fondunun yaradılması işi mühüm əhəmiyyətə malikdir. Kitabxanada 2009-cu ildən müstəqil şöbə kimi fəaliyyət göstərən Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsi hazırda 1993-cü ildən bu günə kimi Azərbaycanda müdafiə olunmuş dissertasiyaları mühafizə etməklə, ənənəvi və elektron formada oxucuların istifadəsinə təqdim edir. Şöbədə həmçinin internet vasitəsilə Rusiya Dövlət Milli Kitabxanasının Elektron Dissertasiya Fondunun virtual oxu zalına birbaşa giriş mümkündür.

Müasir dövrdə virtual xidmətə üstünlük verən oxucuların sayının artması ilə əlaqədar oxuculara virtual xidmət göstərilməsi üçün şöbənin fondunda olan dissertasiyaların tam mətnli elektron versiyasının hazırlanması və lokal şəbəkədə yerləşdirilməsi prosesi davam etdirilir. Hazırda kitabxananın elektron bazasında 5000 nüsxədən cox tam mətnli dissertasiya və aftoreferat oxucuların istifadəsindədir [1].

Həmçinin xidmət işində fərqlənən şöbələrdən olan Elektron informasiya xidməti və KAA (kitabxanalararası abonement) şöbəsi oxuculara təqdim etdiyi virtual xidmət vasitəsilə rayon və şəhər MKS-lərinin fondunda olmayan ayrı-ayrı kitablardan (bədii ədəbiyyat istisna olmaqla) müəyyən hissənin, fəslin, dövri və ardı davam edən nəşrlərdə, elmi əsərlərdə, məcmuələrdə dərc olunmuş məqalələrin elektron versiyasının yerlərə çatdırılmasını həyata keçirir. Bu xidmət ödənişsizdir. Artıq respublikanın rayonlarında və ucqar kəndlərində Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin oxucuları da istənilən kitabın elektron versiyasını şəhərə gəlmədən mütaliə edə bilər.

Azərbaycan Milli Kitabxanası hazırda oxucularına xidməti tam şəkildə avtomatlaşdırmışdır. Lakin biz bəzi dünya milli kitabxanaları ilə tanış olarkən orada yeni xidmət növü və digər yeniliklərlə tanış oluruq ki, bunlarıda gələcəkdə istər Azərbaycan Milli Kitabxanasında, istərsə də Azərbaycandakı digər kitabxanalarda görmək daha əlverişli olardı. Dünya milli kitabxanalarının elektron saytları ilə tanış olarkən bir neçə yeni xidmət növü ilə rastlaşdıq.

Bunlardan biri "Səhvi bizə bildir" xidmət növüdür ki, bunda əsas məqsəd kitabxananın istər saytında, istər elektron kitabxanasında, elektron kataloqunda, istərsə də digər sahələrdə hər hansı bir texniki problem, mətbəə səhvi və digər problemlər aşkarladıqda onu kitabxanaçıya bildirməkdir. Belə ki, aşkarlanan hər hansı bir səhv onu aşkarlayan insan tərəfindən müvafiq bölmədə göstərilərsə bu həmin səhvin tez müddətdə aradan qaldırılmasına səbəb ola bilər. Bu kitabxana işinin optimallaşdırılmasına kömək etmiş olar. (https://www.loc.gov/contact)

Artıq son illərdə sosial şəbəkələrə olan marağı nəzərə alaraq Azərbaycan Milli Kitabxanasının da rəsmi facebook səhifəsi (https://www.facebook.com/az.nat.lib) fəaliyyət göstərməyə başlamışdır.





Burada biz vaxtaşırı kitabxanada həyata keçirilən kütləvi tədbirlər, baş verən yeniliklər, o cümlədən kitabxanaya daxil olan yeni kitablar haqqında məlumat əldə edə bilərik. Eyni zamanda burada kitabxanada keçirilən tədbirlər haqqında da məlumatlar əks olunur. Gələcəkdə təkcə facebook sosial şəbəkəsində deyil, digər məşhur sosial şəbəkələrdə də kitabxananın səhifəsinin yaradılması oxucuları kitaba və kitabxanaya daha da yaxınlaşdırar.

Kitabxanalara daxil olan kitabların fondda "unudulmaması" üçün yəni oxucuların kitabxanaya yeni daxil olan kitabın kitabxanada olduğundan xəbərdar olması üçün bir neçə üsullar vardır ki, bunların əksəriyyəti Azərbaycan Milli Kitabxanası tərəfindən həyata keçirilir. Bu üsullara misal olaraq yuxarıda qeyd etdiyim kimi sosial şəbəkələrdə kitabxananın rəsmi səhifələrində yeni kitablar barədə məlumat vermək, yeni kitablar sərgisini və digər üsulları göstərmək olar. Həmçinin kitabxanada belə bir xidmət də yaradıla bilər ki, oxucular kitabxananın saytına daxil olduqdan sonra müvafiq bölməyə öz elektron poçt ünvanlarını daxil etməklə kitabxanada baş verən yeniliklər barədə həmçinin kitabxanaya daxil olan yeni kitablar haqqında qısa biblioqrafik informasiyanı öz elektron poçtlarına ala bilsinlər. Bu oxucuların kitabxanaya gəlmədən kitabxanaya daxil olmuş yeni kitablar haqqında məlumatı əldə etmək və özü üçün əhəmiyyətli olanı müəyyənləşdirmək üçün əhəmiyyətlidir. Xüsusilə də alimlər, tədqiqatçılar, ziyalılar üçün elektron məlumatlandırma xidməti çox zəruridir.

Milli Kitabxananın oxuculara xidmət işinin müasir vəziyyətinə nəzər salarkən açıq kitabxananın fəaliyyətinə nəzər yetirməmək mümkün deyildir. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Kollegiyasının 14 oktyabr 2016-cı il Azərbaycan Milli Kitabxanası tərəfindən həyata keçirilən "Açıq kitabxana" layihəsi haqqında qərarında deyilir ki, son dövrlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev kitabxanaların səmərəli fəaliyyət göstərməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, fondların zənginləşdirilməsi üçün bir sıra xüsusi əhəmiyyətli sənədlər imzalamışdır. Həmin sənədlərin icrası nəticəsində kitabxana-informasiya sahəsində yeni texnologiyalar tətbiq edilmiş, müasir kitabxana-informasiya infrastrukturu yaradılmış və istifadəçilərə göstərilən kitabxana informasiya xidmətlərinin sayının və keyfiyyətinin artırılması, əhalinin intellektual potensialının, bilik səviyyəsinin inkişafı, habelə fasiləsiz təhsilin təmin edilməsi üçün əlverişli zəmin yaradılmışdır [3, s.3].

"Açıq kitabxana"da "Uşaq guşəsi", "Dövri mətbuat bölməsi" və "Milli musiqi guşəsi" oxucuların istifadəsinə verilmişdir. Eyni zamanda bu kitabxanada oxucular tərəfindən ən çox bəyənilən və müraciət olunan "Mən oxudum, sən də oxu" devizi altında "Kitabı kitaba dəyişmə" guşəsi də fəaliyyət göstərir. Bu xidmət vasitəsilə hər bir vətəndaş mütaliə etdiyi öz kitabını guşəyə təhvil verməklə oxumadığı yeni bir kitab əldə edə bilir.

Beləliklə, hər bir kəs mütaliə etdiyi və oxuduğu kitabların başqa şəxslər tərəfindən də mütaliə olunmasına şərait yaradır.

Yaxın vaxtlarda açıq kitabxanada "Kitab satışı mərkəzi"nin yaradılması, onlayn kitab sifarişi, Azərbaycan Mili Kitabxanasının elektron kataloqundan və elektron kitabxanasından istifadənin yaradılması planlaşdırılır. Bu məqsədlə oraya kompüterlər və digər lazımi avadanlıqların quraşdırılması eyni zamanda internet şəbəkəsinə çıxışın əldə olunması planlaşdırılır. Həmçinin buradan "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"ndan və digər elektron kitabxanalardan istifadənin təşkil olunması da görüləcək işlər sırasındadır [3, s.24].

Ümumiyyətlə, "Açıq kitabxana" 2016-cı ilin iyul ayından bu günə kimi fəaliyyət göstərdiyi müddət ərzində oxucuların sərbəst mütaliə məkanına çevrilmiş və buraya olan maraq yarandığı gündən etibarən günbəgün artmışdır. İstər kütləvi informasiya vasitələrinin, istər dövlət orqanlarının istərsə oxucuların və şəhərimizin qonaqlarının buraya olan marağını nəzərə alaraq "Açıq kitabxana"nın gələcəkdə daha da inkişaf etdirilməsi və genişləndirilməsi, yeni xidmətlərin oxuculara təqdim edilməsi Milli Kitabxananın gələcək inkişaf perspektivində ön sıralarda durur.

## ƏDƏBİYYAT

1. *Azərbaycan Milli Kitabxanasının hesabatları.*
2. *Azərbaycan Milli Kitabxanası - 90: məqalələr məcmuəsi/Baş red. və burax. məsul K.Tahirov; red. A.Abdullayeva.- Azərbaycan Milli Kitabxanası.-Bakı, 2013*
3. *Açıq Kitabxananın fəaliyyətinin əsas istiqamətləri: metodik tövsiyələr /Ə.İsmayılova, A.Abdullayeva; red. K.Tahirov; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2016.-36 s.*
4. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik H.1. Kitabxanaşünaslığın nəzəri əsasları;Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001.-400s.*
5. *İsmayılova Ə. Oxuculara xidmətin əsas istiqamətləri, innovativ yeniliklərin tətbiqi təcrübəsi (Azərbaycan Milli Kitabxanasının təcrübəsi əsasında). Bakı, 2016.-56s.*
6. *Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu // Azərbaycan, 1999, 14mart.*
7. *Tahirov K. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası 2010-cu ildə virtual rejimdə xidmət sahəsinə daha çox üstünlük vermişdir // Xalq qəzeti, 2011, s.5*
8. *Tahirov K. Dünya milli kitabxanaları. M. F. Axundzadə adına Azərbaycan Milli Kitabxanası [Mətn] : dərs vəsaiti /, Bakı:Bakı Universiteti Nəşriyyatı,2013,211s.*





## АВТОМАТИЗАЦИЯ СОВРЕМЕННОГО СОСТОЯНИЯ СЛУЖБЫ НАЦИОНАЛЬНОЙ БИБЛИОТЕКИ АЗЕРБАЙДЖАНА ДЛЯ ЧИТАТЕЛЕЙ

**МИКАИЛОВА С.**

***РЕЗЮМЕ***

*В статье говорится о текущем состоянии автоматизации сервиса для читателей Национальной библиотеки. А также даны материалы новшеств в обслуживании читателей.*

***Ключевые слова:*** *Национальная библиотека, сервис для чтения, автоматизация, онлайн-сервис*

## AUTOMATION OF THE MODERN STATE OF AZERBAIJAN NATIONAL LIBRARY SERVICE FOR READERS

**MIKAILOVA S.**

***SUMMARY***

*In this article, status of automation of service to the readers of National Library is discussed. Innovations applied for the service to the readers are mentioned ,too.*

***Key words:*** *National library, service to readers, automation, online service*